BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
***№1 Humanitar elmlər seriyası 2013***

**UOT 94(479.24)**

# AZƏRBAYCANIN XX ƏSR TARİXŞÜNASLIĞINA YENİ BAXIŞ

**M.P.ZÜLFÜQARLI**
***Azərbaycan Turizm İnstitutu***
***mzulfugarli@gmail.com***

*Məqalədə Azərbaycanın XX əsr tarixinin dövrlərə bölgüsü təhlil olunur. Müəllifin fikrincə, Azərbaycanın XX əsr tarixinin obyektiv tədqiqi üçün üç respublika: I Respublika - Azərbaycan Xalq Cümhuriyyəti (28 may 1918 - 27 aprel 1920), II Respublika - Azərbaycan Sovet Sosialist Respublikası (27 aprel 1920 - 18 oktyabr 1991), III Respublika - Azərbaycan Respublikası (18 oktyabr 1991) tarixlərinin dövrlərə bölgüsünün düzgün aparılması mühüm əhəmiyyət təşkil edir. Məqalədə Azərbaycan Respublikasının Prezidenti H. Əliyevin XX əsr tarixinin dövrlərə bölgüsünə aid yeni baxışı geniş təhlil olunur.*

**Açar sözlər:** XX əsr tarixi, dövrlərə bölgü, yeni baxış, tarixşünaslıq

Azərbaycanın XX əsr tarixinin obyektiv tədqiqi əvvəlki illərdə olduğu kimi, hazırda da mühüm aktuallıq təşkil edir. Prezident Heydər Əliyev Azərbaycan Milli Elmlər Akademiyasında keçirdiyi 31 yanvar 1997-ci il tarixli görüşündə Azərbaycanın XX əsr tarixinin yenidən yazılmasının aktuallığı haqqında demişdir: "Azərbaycanın XX əsr tarixi yazılmalıdır… Bu əsrdə dünyada və respublikamızın həyatında baş verən ictimai-siyasi hadisələr məlumdur. Ancaq bu XX əsrdə yaşadığımız ideologiyaya və onun konsepsiyasına görə bizim tariximiz təhrif olunmuşdur. Ona görə də, mən çox çalışırdım ki, biz XX əsr tarixini tez yazaq. Çünki, bilirsiniz tariximiz bir tərəfdən təhrif olunub, digər tərəfdən isə bəziləri keçmişdə nə varsa, götürüb qəzetlərdə, kitablarda qaralamağa, pisləməyə başlayıblar" (1, 369).

Azərbaycanın XX əsr tarixinin obyektiv tədqiqi üçün üç respublika: I Respublika - Azərbaycan Xalq Cümhuriyyəti (28 may 1918 - 27 aprel 1920), II Respublika - Azərbaycan Sovet Sosialist Respublikası (28 aprel 1920 - 18 oktyabr 1991), III Respublika - Azərbaycan Respublikası (18 oktyabr 1991) tarixlərinin dövrlərə bölgüsünün düzgün aparılması mühüm əhəmiyyət kəsb edir.

XX əsr tarixinin dövrlərə bölgüsü uzun zaman Sov. İKP-nin siyasi xətti əsasında həyata keçirilib. Sovet dövründə SSRİ tarixinin tərkib hissəsi kimi Azərbaycan SSR-in tarixi də eyni dövrlərə bölünmüşdü. Bu problemlə bağlı

digər respublikalarda müəyyən elmi araşdırmalar aparıldığı halda, həmin dövrdə Azərbaycanda bu sahəyə ciddi fikir verilməyib.

Rusiya tarixçilərindən M.V.Neçkina, M.P.Kim, N.N.Dikov XX əsr tarixinin dövrlərə bölgüsünə aid bir sıra elmi məqalələr yazmışlar (2, 1988; 3, 4).

SSRİ-də sovet dövrü tarixinin dövrləşməsini əsaslı surətdə akademik M.P.Kim hazırlayıb. Lakin onun sxemindən daha təkmil sxemi SSRİ EA-nın müxbir üzvü N.N.Dikovun "Sovet cəmiyyəti tarixinin dövrləşməsi haqqında" məqaləsində verilib (5). Bu sxemə görə sovet cəmiyyəti tarixi aşağıdakı dövrlərə bölünüb:

1. Kapitalizmdən sosializmə keçid. Dövlət sosializminin qurulması (1917-1936).
2. Dövlət sosializminin möhkəmləndirilməsi və inkişafı. İnzibati - amirlik, total dövlət sosializmi (1937-1985).
3. Sosialist yenidənqurması (1985-ci ildən sonra).
4. Demokratik sosializmin inkişafı.

A.A.Danilov və L.Q.Kosulinanın Moskvada 1996-cı ildə rus dilində nəşr olunmuş "XX əsr Rusiya tarixi" kitabında sovet tarixi aşağıdakı dövrlərə bölünüb: "Rusiya perspektivlərin axtarışında (1917-1927-ci illər)", "Rusiyanın Stalinsayağı modernizə edilməsi (1928-1938-ci illər)", "Sovet İttifaqı İkinci dünya müharibəsi dövründə (1939-1945-ci illər)", "Stalinizmin apogeyi: SSRİ 1945-1953-cü illərdə", "Stalinin fəaliyyətinin tənqidinə ilk cəhdlər: SSRİ 1953-1960-cı illərin ortalarında", "Sistemin böhranı: SSRİ 60-cı illərin ortalarından - 80-ci illərin ortalarına kimi", "Sistemin "sonuncu şansı": SSRİ-də "yenidənqurma" 1985-1991-ci illər".

Azərbaycan SSR-in tarixinin dövrlərə bölünməsi sahəsində müxtəlif baxışlar və sistemlər mövcuddur. Buna görə də, Azərbaycanın sovet dövrü tarixinin dövrlərə bölünməsi tarixşünaslığının tədqiqi də böyük aktuallıq kəsb edir.

Azərbaycan SSR-in dövrlərə bölünməsi də uzun zaman Sov. İKP-nin siyasi xətti əsasında həyata keçirilib. SSRİ tarixinin tərkib hissəsi kimi Azərbaycan SSR-in tarixi də eyni dövrlərə bölünüb. Bu problemlə bağlı digər respublikalarda müəyyən elmi araşdırmalar aparıldığı halda, Azərbaycanda buna çox az fikir verilib.

Bu sahədə Bakı Dövlət Universitetinin tarix fakültəsində 1992-ci ilin may ayında keçirilmiş "Azərbaycan tarixinin dövrləşməsi" probleminə həsr olunmuş seminar və nəşr olunmuş bir neçə məqalə (6) istisnalıq təşkil edir. Bu seminarda Azərbaycan tarixinin dövrlərə bölünməsinə aid müxtəlif fikirlər səslənib, alimlər başqa dövrlər ilə yanaşı, sovet dövrü üçün də yeni bölgülər təklif ediblər.

Professor S. Əliyarlı Azərbaycan tarixini beş dövrə bölməyi, 4-cü dövrü 1920-1991-ci illər qırmızı bolşevizmin varlığı, 5-ci dövrü 1991-ci ildən sonra milli dövlətçiliyin bərpası kimi adlandırmağı təklif edib.

Professor Y.Mahmudov Azərbaycan tarixini 4 dövrə bölməyi, 4-cü dövrü isə "Müasir dövr və ya ən yeni dövr" adlandırmağı daha düzgün hesab edib.

Dövrün məzmununu isə aşağıdakı kimi açıqlayıb: “Rusiya imperiyası və beynəlxalq irtica Azərbaycanın siyasi dirçəlişinə imkan vermir. Şimali Azərbaycan Sovet imperiyasının tərkibinə qatılır, cənub isə İranın əsarətində qalır. Yurdun hər iki hissəsində istiqlaliyyət mübarizəsi davam edir” (7, 112 - 116).

SSRİ tarixinin sovet dövrü sovet tarixşünaslığında çox cüzi dəyişikliklərlə əsasən aşağıdakı dövrlərə bölünüb: 1-ci dövr - “Proletar inqilabı və SSRİ-də sosializmin qələbəsi” (1917-1937); 2-ci dövr -“SSRİ-də sosializm cəmiyyətinin möhkəmlənməsi və inkişafı uğrunda mübarizədə” (1938-1958), 3–cü dövr - “SSRİ geniş kommunizm quruculuğu dövründə” (8).

Azərbaycan SSR EA Tarix İnstitutunun nəşr etdiyi 3 cildlik “Azərbaycan tarixi”nin 1973-cü ildə nəşr olunmuş 3-cü cildində sovet dövrü aşağıdakı dövrlərə bölünüb: “Azərbaycan proletar inqilabı və sosializm quruculuğu dövründə” adlanan 1-ci dövrün 1920-ci ildən başlanan fəsilləri belə adlanır: “Azərbaycan SSR-in yaradılması ” (1920-ci il), “Azərbaycan SSR xalq təsərrüfatının bərpası dövründə” (1921-1925-ci illər); “Azərbaycan sosialist sənayeləşdirilməsi və kənd təsərrüfatının kollektivləşdirilməsi uğrunda, sosialist iqtisadiyyatının təməlinin qurulması uğrunda mübarizə illərində”(1926-1932-ci illər); “1917-1932-ci illərdə Azərbaycanda mədəni quruculuq”, “Azərbaycan SSR xalq təsərrüfatının yenidən qurulmasının başa çatdırılması dövründə, SSRİ-də sosializmin qələbəsi” (1933-1937-ci illər) (9, 547-548); “Azərbaycan zəhmətkeşləri sosializm cəmiyyətinin möhkəmləndirilməsi və ölkənin müdafiəsinin gücləndirilməsi uğrunda mübarizədə” (1938 - iyun 1941); “Azərbaycanda mədəni inqilabın həlledici müvəffəqiyyəti, Azərbaycan SSR Böyük Vətən müharibəsi dövründə” (iyun 1941-1945); “Azərbaycan zəhmətkeşləri sosialist xalq təsərrüfatının bərpa və inkişafı uğrunda mübarizədə” (1945 -1953-cü illər), “Xalq təsərrüfatının müharibədən sonra bərpa və inkişafı dövründə Azərbaycanda mədəniyyətin yüksəlişi” (1945-1953-cü illər); “Azərbaycan zəhmətkeşləri xalq təsərrüfatının yüksəlişi, sosializm quruculuğunun başa çatdırılması uğrunda mübarizədə” (1953-1958-ci illər); “Azərbaycan SSR geniş kommunizm quruculuğu dövründə” (10, 527–528).

Sov. İKP Proqramında 80-ci illərdə kommunizm quruculuğunun başa çatacağı haqqında irəli sürülmüş müddəaların həyata keçməməsi sovet alimlərini yeni konsepsiyalar axtarmağa vadar etdi. Onlar “İnkişaf etmiş sosializm”, “İnkişaf etmiş sosializmin təkmilləşdirilməsi” dövrləri kimi süni dövrlər “kəşf” etmiş və hətta bu dövrlərin illərinin müəyyən olunmasında yekdil fikirə gələ bilməmişlər.

Azərbaycan SSR-in tarixinin dövrləşməsinə 1990-cı ildən başlayaraq bir sıra alimlər uzun illər mövcud olmuş sistemə tənqidi yanaşmış, hətta bəzi tarixçilər ehkamçılıqdan uzaqlaşaraq bəzi dövrləri tamamilə dəyişmişlər.

Professor S.Əliyarlının redaktorluğu ilə 1990-cı ildə nəşr olunmuş “Azərbaycan tarixi üzrə problem səciyyəli mühazirə və seminar məşğələlərinin proqramı” adlı metodik vəsaitdə sovet dövrü tarixinin dövrləşməsi aşağıdakı kimi aparılıb: Azərbaycanda Sovet hakimiyyətinin qurulması; İqtisadiyyatın

bərpası və inkişafı; Mədəni inqilab; Azərbaycan SSR Böyük Vətən müharibəsində; Müharibədən sonra iqtisadi inkişafın başlıca məsələləri; Azərbaycan SSR 60-80-ci illərdə. Son dövr iki hissəyə bölünüb: 1) Azərbaycan SSR-in sosial-iqtisadi və mədəni inkişafının başlıca problemləri; 2) Azərbaycan SSR yenidənqurma xəttinin həyata keçirilməsi yolunda.

Azərbaycan SSR tarixinin bu cür dövrlərə bölgüsü əvvəlkilərdən forma və məzmunca fərqlənsə də, köhnə stereotiplər qalmaqda davam edir.

B.Abdullayev və R.Abdullayev tərəfindən yazılaraq, 1995-ci ildə nəşr olunmuş "XX əsrin siyasi tarixi" (qısa xronologiya ) kitabında dövrlər: 20-30-cu illər (1922-1939); 1939-1945; 1945-1985; 1985-1994-cü illər kimi verilib.

E.İsmayılovun kitabında Azərbaycan SSR-in tarixi - Azərbaycan SSR 1920-1930-cu illərdə; Azərbaycan II Dünya müharibəsi illərində; Azərbaycan SSR 1945-1985-ci illərdə; Sovet imperiyasının süqutu və Azərbaycanda milli-azadlıq hərəkatı; Azərbaycanın dövlət müstəqilliyinin bərpası dövrlərinə bölünüb (11).

K.Şükürovun kitabında isə dövrlər aşağıdakı kimidir: Azərbaycan SSR 1920-1922-ci illərdə; Azərbaycan SSR 1920-1930-cu illərdə; Azərbaycan SSR 1941-1945-ci illərdə; Azərbaycan SSR 1940-cı illərin 2-ci yarısı - 1950-ci illərin əvvəllərində; Azərbaycan SSR 1950-ci illərin ortaları - 1980-cı illərin ortalarında; Azərbaycan SSR 1980-ci illərin 2-ci yarısı - 1990-cı illərin başlanğıcında (12).

7 cildlik "Azərbaycan tarixi"nin C.B.Quliyevin redaktorluğu ilə nəşr olunmuş VI cildində və T.Qaffarovun redaktorluğu ilə nəşr olunmuş VII cildində (13, 14) tədqiqata aid illərin dövrləşməsi digər kitablardan fərqli olaraq çox geniş verilib. Bu kitabların mündəricatında hər fəsil hissələrə və yarımhissələrə bölünüb.

T.Qaffarovun 1999-cu ildə "Mütərcim" nəşriyyatı tərəfindən nəşr olunmuş 280 səhifəlik "Azərbaycan tarixi" (1920-1991) kitabında verilmiş bölgü 7 cildlik Azərbaycan tarixinin VI və VII cildlərinə nisbətən daha yığcamdır.

Azərbaycan dövlət müstəqilliyinin bərpa etdikdən sonra XX əsr tarixinin dövrlərə bölgüsü sahəsində müəyyən işlər görülsə də, köklü dəyişiklər baş verməmişdir.

Təqdirəlayiq haldır ki, Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev XX əsr tarixinin yenidən yazılmasını tarixçilərin qarşısında bir vəzifə kimi qoymaqla yanaşı, həm də XX əsr tarixinin dövrlərə bölgüsünə aid də başqalarından tamamilə fərqli təklif irəli sürmüşdür ki, bunu da tarixin dövrlərə bölgüsü sahəsində yenilik hesab etmək olar.

AMEA-nın həqiqi üzvü, professor R.Mehdiyev XX əsr tarixinə aid Heydər Əliyev tərəfindən irəli sürülmüş yeni bölgü haqqında ictimaiyyətə geniş məlumat versə də, çox təəssüf ki, tarixçilər bu yeniliyə lazımi diqqət . Bu bölgüyə əsasən Azərbaycanın XX əsr tarixi 4 dövrə bölünür:

1. XX əsrin əvvəllərindən 1917-ci ilin oktyabrına qədərki dövr.

2. 1918-1920-ci və 1920-1922-ci illər - Azərbaycan Xalq Cümhuriyyətinin mövcud olduğu və Azərbaycan Sovet Respublikası SSRİ-nin tərkibinə daxil olana qədərki dövr.

3. 1922-ci ildən Azərbaycanın öz milli müstəqilliyini bərpa etdiyi 1991-ci ilədək olan dövr.

4. 1991-ci ildən bu günədək olan dövr (15).

Bu bölgünün yeniliyi ondan ibarətdir ki, 1918-1920-ci illər Azərbaycan Xalq Cümhuriyyətinə, 1920-1922-ci illər isə Sovet Azərbaycanına aid dövrlər olmasına baxmayaraq 1918-1922 illərin bütöv, eyni dövr daxilində öyrənilməsi təklif olunub. Bundan başqa Azərbaycan SSR-in 1920-1991-ci illəri əhatə edən tarixinin 1920-1922-ci illər dövrü ayrıca verilməsi başqa, yeni fikrin, Azərbaycanın XX əsr tarixinin üç respublika deyil, dörd respublika dövrü kimi təqdim etməyə imkan verir: I respublika 1918-1920, II Respublika 1920-1922, III Respublika 1922-1991, IV respublika 1991-hazırki dövr.

Azərbaycan tarixinin, o cümlədən XX əsr tarixinin dövrlərə bölgüsü sahəsində tədqiqatlar davam etdirilməli, bu sahədə sovet tarixşünaslığından fərqli yeni bölgülər irəli sürülməlidir. Fikrimizcə, bu Azərbaycan tarixinin obyektiv tədqiqinə yaxındanköməklik göstərə bilər.

## ƏDƏBİYYAT

1. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı: Azərnəşr, 1998, 511 s.
2. Журн. "Вопросы истории", 1988, №6, с.3-7.
3. Журн. "Вопросы истории КПСС" 1991, №9, с. 10-13.
4. Журн. "История СССР", 1960, №1, с.5-9.
5. Журн. "Коммунист" 1981, №7; 1987, №12.
6. "Tarix" qəzeti, 1992, 7 may.
7. Zülfüqarlı M.P. "Azərbaycan SSR tarixinin dövrlərə bölünməsinin tarixşünaslığı" // "Bakı Universitetinin Xəbərləri", (humanitar elmlər seriyası), №3, 2000.
8. История СССР. ч. 2, Москва: Просвешение, 1974, 320 s.
9. Azərbaycan tarixi. 3 cilddə, III c., 1-ci kitab. Bakı: Elm , 1973, c. 548.
10. История Азербайджана. т.3, част 2, Баку: АН Аз. ССР, 1963, 548 s.
11. İsmayılov E., Həsənov C., Qafarov T. Azərbaycan tarixi. Bakı: Azərnəşr, 1995, 176 s.
12. Şükürov K.K. Azərbaycan tarixi. Bakı: Azərnəşr, 1998, 480 s.
13. Azərbaycan tarixi. 7 cilddə. VI c. (məsul redaktor C.B.Quliyev). Bakı: Azərnəşr, 2000, 568 s.
14. Azərbaycan tarixi. 7 cilddə. VI cild (məsul redaktor T.B.Qaffarov). Bakı: Azərnəşr, 2003, 608 s.
15. "Azərbaycan" qəzeti, 2008, 2 aprel

## НОВЫЙ ВЗГЛЯД НА ИСТОРИОГРАФИЮ АЗЕРБАЙДЖАНА XX ВЕКА

**М.П.ЗУЛЬФУГАРЛЫ**

**РЕЗЮМЕ**

В статье анализируется периодизация истории Азербайджана XX века. По мнению автора, для объективного исследования истории Азербайджана XX века имеет важное, значение правильная периодизация истории трех республик: I Республика - Демократическая Республика Азербайджана ( 28 мая 1918 года – 27 апреля 1920 года), II Республика – Азербайджанская Советская Социалистическая Республика (27 апреля 1920 года – 18 октября 1991 года), III Республика – Азербайджанская Республика (18 октября 1991 года). В статье широко анализируется новый взгляд Президента Азербайджанской Республики Г.Алиева в периодизации истории Азербайджана XX века.

**Ключевые слова:** история XX века, новое мышление, периодизация истории, историография

## A NEW GLANCE AT THE HISTORIOGRAPHY OF THE XX CENTURY

**M.P.ZULFUGARLI**

**SUMMARY**

The article analyzes division of the XX century's history of Azerbaijan into periods. According to the author, an objective study of the history of the XX century requires its precise division into the following periods: the first Republic period – the Azerbaijan Democratic Republic (May 28, 1918 – April 27, 1920), the second Republic period – the Azerbaijan Soviet Socialist Republic (April 27, 1920 – October 18, 1991), the third Republic period - the Republic of Azerbaijan (October 18, 1991). H.Aliyev's glance at the division of the XX century's history of Azerbaijan into the periods is broadly analyzed in the article.

**Key words:** the history of the XX century, a new glance, historiography